Sag olsyn Imamkyly! Suzməqdə ustu jox idi: Ajakları palazın ustə ehmal atılıb, duƶmədə idi; bədəni belə tərpənirdi qi elə bil heç sumuju jox idi.

Bydyr zyrna javaƶıdı. Imamkyly qəzlərini alaçıgın bacasına tiqib, jerində bitdi». Məclis qirijib, səs səmir qəsildi.

— Jat, jat, Imamkyly!-Birdən «padƶah çıgırdı: jat, jat!

Imamkyly çoxdan jatmıƶdı: jerində tərpənməz dyryb, bircə sag ajagının ycyny javaƶ-javaƶ palaza dəjurdu. çəpiqlər çırtıga enmiƶdi: bynyn da səsi eƶidilmirdi. Neçə dəkikə idi saqitliq bərpa idi.

— çəpiq vyryn! çəpiq! çəpiq!... fərraƶ! Haradasan? Zapparla, çəpiq vyrsynlar!

Fərraƶ saga, sola çybykdan dəƶujurdu. Jenə səs, quj, çəpiq dam ilə bir oldy. Imamkyly da əvvəlqi jerindən sıçırajıb, suzə-suzə məcliscin o baƶına qetdi. Bir də suzub, bəri qəldi. Suzub, jykarı qetdi. Ojyny javaƶıdıb, bir də «padƶahın» kabagında «bitdi».

Sag olsyn Imamkyly!
Sag ol aƶıq!...

---

*) Toj agası. Bə'z jerlərdə xan dejirlər.

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-880496533-16

— Sinninə lajıq dejilsə də, qiəi kızın xatirəsi uçun jakəı toj elətdirir-dejə məclisdəqilərin biri o birinə pıçıldadı.

O biri:

— Kız da jad dejil, qi, öz baldızıdır. Elə by həjətdə də olyr.

— Baldız olanda nə olar; qiəi çox vafalı qiəidir. Qlərmursən arvadı öləndən sonra on il evlənmədi. Kajın atası demiədi qi, balaca kızım bəjusun, sənə verəcəjəm. O da qəzlədi. Kız imdi on dərt jaəına jetiəib, toj, olyr.

— Dogrydan vafalı qiəidir: jetimlərin zəhmətini çəqə-çəqə sakkalı tamam agardıb...

— Fərraə, o qimdir orada səhbət elijir?

— «Padəah» sag olsyn, çajçı məədi-Həsəndir.

çəq məədi-Həsəni byra. Qlərəq məədi Həsən məclisdə danıədıgı ustə falakkaja salınsın.

Bir dəkikə də falakka qəldi. Fərraəlar məədi-Həsəni jıxıb, ajagına on çybyk vyrdylar.

— Ysta, aəık!

— Bəli, padəah sag olsyn!

— Imdi bir «qəsmə» hava çalın məədi-Həsən ojnasın!

Zyrna duzəldi. Dəf vyryldy. çəpiq kalkdı. Məədi-Həsən çyxasının kolları əlində ojnamaga baəladı.

* *
*

Toj vyrylyrdy. Arvadlar otakda çəpiq çalıb, suzurdulər. Qləlinlər, kızlar agır agır enib, kalkırdılar. Juzluqlər əabaə verilirdi:

— On tumən bərat verdim, jenə özundən bəjin ,jenə qabla-Əbylkasımın! Aj əabaə, toj maəallah!

Totyk qəlinlər bir bir ojnadılar, qəjçəq kızlar suzdulər novbat qəlinə qəldi:

— Aj yəak, kaçın qəlin qəlsin.

Qləlin qəldi. janakları alma qibi kızarmıə. Surməli qözlərini jerə tiqib, ytandıgından qimsəjə baxa bilmirdi.

Qləlin ojyna qirdi.

Qözəl qəlin, nazlı qəlin! Qləlin nə narın suzurdu. Nə dadlı, səqirdi. Qlah kızılları səslənir, qah dujmələri əıkkıldaəır....

Səqdi qəlin, suzdu qəlin, bir də məclisin ortasında dyryxyb, əllərilə uzunu kapadı: Qləlin həqururdu.

Qləlin nijə aglıjır? Qləlinə nə dedilər?

Bilən joxdyr. Qimsə qəlinin dərdindən aqah ola bilmir. Qlə-

lin aglıjır; qəzlərinin jaɜları od qibi təqulub, kırmızı janaklarını daglıjır.

Bir dəkikədə arvad-yɜak qəlinin baɜına toplandılar. Kız Qəlinlər qəldilər.

Bəs qəlin nijə aglıjır?

Qəlin koca qiɜijə ərə qetməq istəmir, jetim saxlamak istəmir.

«Mən o qiɜidən korxyram; bacımı çərlədən qibi məni də öldurəcəq»-dejib, qəlin zar-zar aglıjır.

Qəlinin sözləri anasını da qəjrəltdi: by da qəzlərini doldyryb, həqurdu. Kız qəlinlər də dolyksynyb, aglaɜdılar. Qəlin agladı, anası agladı. Bynlar da qiriɜində kızlar agladı, konak lar agladı, totyk qəlinlər agladı, çox qəz jaɜı təquldu, çox urəqlər jandı.

* *
*

Toj vyrylyrdy. Zyrnaçılar ordlarını ɜiɜiirdib, qəzlərini suzurdulər. Aɜık da sazı dınkıldadıb, janıglı səs ilə okyjyrdy:

«Mən by dərədən ötmərəm
çadramı jellətmərəm
Ag sakkala qetmərəm
Hokka baz oglan qərəq
Qəqili saz oglan qərəq...»

Universitäts- und Landesbibliothek Sachsen-Anhalt
urn:nbn:de:gbv:3:5-1192015415-880496533-16

Üç.

Tacır azad tez-tez arvadı Mehrini qəturub, kajın atası qilə otyrmaga qedirdi. Kapıdan içəri qirən qibi baldızları Mərjəm və Ziba jujururdulər bynların kabagına. Azad baldızlarına həmizə sovkat qətirərdi: sabından, zirnidən; hər nə aglına qəlsə idi. Kızlar Azadı çox istərdilər, və hərəsi onyn bir tərəfində otyryb, quləz uzlərini ondan çəqirtməzdilər. Mərjəm on iqi jazında kırmızı janak, sadə lovh bir kız idi. Ziba sa ondan qiçiq idi. Birdən Mərjəm əlini azadın sakkalına surtub dejirdi:

— Azad əmi, sakkalın nə jaman agarıb!

Və sonra agzını buzub, elə kəhkəhə çəqirdi qi, ətrafdaqıları da qulməjə vadar edirdi.

Qarbalajı Mehdi çırt çybygyny agzından çıxardıb, təbəssum ilə:

— Ortancı kızın mənə oxzajıb, sözu «diq» dejir!

Azad Mərjəmin sözlərinə ciddi mə'ni vermijib, hamı ilə bir jerdə qulməjə bazlardı.

Mehri suqytda olardı. Ətrafdaqılar dejirdilər, qulurdulər by hejran-hejran baxardı və həmizə dəryni bir fiqir ilə məzgyl olardı. Mehrinin by halı hamının nəzərini özunə cəlb edirdi - qərurdulər janakları solyr, qözləri çöqəqə duzur.

Anası Mehri ilə diz-dizə otyryb, dejirdi:

— Bala, nijə dejib, danızmırsan? Həmizə səni dinməz qərurəm. Bəlqə deməli bir dərdin var mən bilmirəm?

Mehri anasının uzunə ziqajətçi bir nəzər ilə baxıb, bazını azagı sallardı, qözləri jaz ilə dolardı.

Anası tiqrarən:

Balam, axır de qərum dərdin hajandandır?

— ...

— Bəlqə çörəqdən, paltardan jarımırsan? Bəlqə səni evdə baldızların, kajınların jola vermirlər? De qərum axır nə olyb?

Mehri dinməzdi. çunqu halını bəjan etməjə dili jox idi; acılıklara da karzı e'tiraza kadir dejil idi-cəsarətsiz, ixtijarsız, zəxsijjətsiz bir zej idi. Urəjin dəqi dərdinə səbr edib, qun qundən fovt olyrdy.

Azad arvadı Mərjəmi qəturub, kajın atası qilə otyrmaga qedərdi; Mehrinin vəfatından bir il qeçmiz toj olmyzdy.

Kapıdan qirən qibi karəlarına Ziba çıxıb, qulə-qulə onları otaga aparırdı. Otyrardılar, çaj kojarlardı, çərəz qələrdi. Dejirdilər, qulurdulər; hərənin nə mətai olsa idi ortalıga kojardı. Təqcə Mərjəm suqyta qedib, bir səz səjləməzdi. O diribaz, mudriq, həmisə zad kız, imdi gejri təbii bir halda ciddiləzmizdi, vaktsız kocalmızdı. Janaklarında əvvəlqi taravət, qəzlərində diriliq kalmamızdı. Bahar çiçəjini zaxta vyryb, kyrydan qibi; ərə qetməq də by zərif, qəzəl, həjat ilə məmluvv kızzcıgazı kuvveji-mənhysəsi ilə bir cansız, rənqsiz hejqələ dəndərmizdi.

Mərjəmin qun qundən fovt olyb qetməji hamıja mə'lym idi. Laqin heç qəs onyn əsl dərdindən xəbər dar dejil idi. Kanacak o dərəcəjə jetməzdi qi, bircə adam onyn dəryni aləminə əl aparıb, urəjini dəlib, jaralıjan gəmlərə çara arasın. Ətrafındaqılar tamam kanmaz, nadan idilər. By nadanlıga jazlı qəzləri ilə baxa-baxa biçara Mərjəm saraldı, soldy: bir qun də zədid həjatdan aralanıb, rahətlijə çıkdı.

Qərbalajı Mehdi baxdı qərdu qi, Azad qibi adlı sanlı və dəjlətli kohym bynyn əlinə duzmujəcəq. Qarbalajı adam jollajıb, bir neçə ag sakkal çagırdı, qetdilər kazının janına: axzam Zibanın qəbini qəsilib, kyrtardı. Iqi qundən sonra Azad bir qisə həna alıb sakkalını karaltdı. O bir qun də muxtəsərcə bir toj olyb, qəlin qətirdilər.

* *
*

Tacır Azad jenə arvadı ilə kajın atasının evinə otyrmaga qedərdi. Laqin kabaklarına çıxan olmazdı. Otyrardılar; jejib, içərdilər. Artık dejib, qulən zadlık eləjən jox idi. Iqi tərəf də həmizə suqytda olardı.

Azad fiqrindən qeçirirdi:

— Arvad qun qundən saralır; dejəsən, by da bacıları qibi «qənu dyzlyjacak», jenə xərcə duzub təzədən evlənəcəjəm!

Qarbalajı Mehdi də kızına baxıb, urəjində vyryzdyrardı:

— Kız ələcəq, Azad qibi kohymdan əlimiz çıxacak. Tərs qibi jerdə bir ajrı kız da joxdyr qi jerinə verəq!

Sərhəd məsələsi.

— Min dəfə dejirəm by zəhirmar çəpəri çəqəndə өz xarabanızdan çəqin!

By səzlər ilə dəmirçi qarbalajı-Agca həjətin qanarına qəlib, baəladı «basarax» Qazım təzə çəqdirdiji çəpəri yçyrmaga.

— Tərpətmə! Sənə dejirəm tərpətmə! Tərpətmə!

By səzlər ilə də «basarax» Qazım jujurub, qarbalajı-Agcanı dytdy. Qarbalajı-Agca dartına-dartına:

— Min dəfə dejirəm by zəhirmar çəpəri çəqəndə өz xarabanızdan çəqin!-Dedisə də Qazım byny byraxmadı:

— Byra mənimdir, byradan çəqəcəjəm!

— Xejir sənin dejiil!

— Xejir mənimdir!

— Snə dejirəm, sənin dejil!

— Sənə dejirəm mənimdir!

— Xejir sənin dejil!

— Xalis mənimdir!

Qarbalajı-Agca urəji dəjunə-dəjunə qəzlərini «basarax» Qazıma agardıb, hirsli və titrəjən dodaglarını bir birinə ja vıklaədırıb, quc ilə dedi:

— Allahu əqbər, Lə'nət sənə əejtan!

«Basarax» Qazım da jogyn kaəlarının altından baxan xırda uzum qilələrinə oxəar qəzlərini bərəldib dedi:

— Nijə qəzunu zadını agardırsan? Səndən korxan joxdyr! De qərum hələ çəpəri nijə səqursən?

Qarbalajı-Agca acıklı cavab verdi:

— çoxda jaxəı elijirəm!

— çox gələt elijirsən!

— Gələti baban elijir!

— Sənin həftati-puətun elijir!

— Babajın babası elijir!

Byrada artık səs qəlmədi: konəylar tytyədylar. Koçak qarbalajı-Agca Qazımı kara kyə qibi, bogazından aldı. Qazım da qumbə qibi əllərilə qarbalajı-Agcanın jaxasından japıədı. Bir az dartıədılar. Bir birinə galıb qələ bilmədilər. Qarbalajı-Agcanın fiqrində by idi qi,çəqiəi sindanda vyran qibi, «basarax» Qazımı çəpərə elə çırpsın qi, çəpərin taxtaları lax-

lasɣn. Amma olmadɣ: Qazɣm o kədər agɣr idi qi, heç jerindən də tərpənmədi. Qazɣmɣn da fiqrində by idi qi, qarbalajɣ-Agcanɣn jaxasɣnɣ tamam cɣrsɣn. Byny qarbalajɣ qərduqdə gəzəbli səs ilə dedi:

— Əlini jaxamdan çəq!

Cavab qəlmədi. Bir də:

— Sənə dejirəm əlini jaxamdan çəq!

Jenə cavab qəlməjəndə qarbalajɣ dartɣnɣb, ona bir iqi jymyryk vyrdy. Dava ziddətləndi. Səslər ycaldɣ. Səjuzlər ziddətləndi.

Qarbalajɣ Agcanɣn arvadɣ kara Ballɣ təzəcə bozbazɣn qəfini alɣrdɣ, həjətdən bərq səs qəldi. Kazɣgɣ jerə kojyb, otakdan çɣxdɣkda, izdən xəbərdar oldy. Daha Ballɣnɣn əlindən nə qələr: bir az o baza, bir az by baza jujurub; bir az dizinə çɣrpɣb, sonra jazmandɣ və sag əlini kabaga yzada-yzada çɣgɣrdɣ:

Qarbalajɣ-Agca arvadɣ qərcəq bir az urəqləndi:

— Adə, ej! Aj kɣrmɣzɣ! Qizinin jaxasɣnɣ nijə cɣrɣrsan? axɣr təzəcə tiqmizəm!

Qərbalajɣ agca arvadɣ qərcəq bir az urəqləndi:

— Ədə qəl by çəpəri səq!

Arvad ajak jalɣn jujurub, bazladɣ çəpərin taxtalarɣnɣ silqələməjə. «Basarax» Qazɣmɣn arvadɣ Xɣrda xanɣm byny qərcəq, jajlɣgɣ bazɣna atɣb, jujurdu. Bynlar da birçəqləzdilər. Hərdən kara Ballɣnɣn səsi qəlirdi.

— Aj kɣz! Ejjj! Aj arvad! Dəli olmamɣsan çəpqənin kolyny nijə cɣrɣrsan?..

* *
*

Axzam vaktɣ idi. Məzədi Kaşɣm və ogly Əlikyly darvazadan içəri ajak kojanda. xəbərdar olyb, çəpərə tərəf jujurdulər. «Basarax» Qazɣmɣn oglanlarɣ, Kənbər, Sulu və kardazɣ Zalɣz da byrada hazɣr oldylar. Daha dyrmak jeri dejil idi: Məzədi Kasɣm kənbəri qəturub, çɣrpdɣ jerə; Əlikyly çəpərdən bir taxta kopardɣb Sulujə kolazladɣ və sonra birçəjindən dytyb kapazdan dəzədi. Zalɣz kaldɣ təq, bilmirdi nə kajɣrsɣn. Əvvəl qarbalajɣ-Agcaja bir neçə təpiq vyryb, sonra Əlikylyny o qi var dəjdulər. Məzədi-Kasɣm Kənbəri qucdən salɣb, Əlikylynyn qəməjinə qəldiqcə, Zalɣz ilə dytyzdylar. Zalɣz byna bir badalak atɣb, jɣxdɣ və Kənbri də çagɣrɣb, byny təpiqləməjə bazladɣlar. Sulu təqliqdə Əlikyly ilə bacarmadɣ: Əlikyly jerdən kalkɣb, Sulujə bir iqi agac vyrdy. Sulunun bazɣnɣn kanɣ axa-axa

Əlikylyja aman verməjib, ony kycakladı və iqi əlli onyn kylaklarından dytyb, jerə jıxdı.

Əlikyly lap candan duɜmuɜdu: Sulu ɜir təq onyn uzunu jırtıb dagıtdı; bədənini agac, daɜ təpiq və jymyryk ilə əziqlədi. Zalıɜ məɜədi-Kasımı dəjməq ilə sojymyjyb, tamam bogdy. Kənbər bir ɜej bacara bilbədi: ɵzu də qətəqdən ɜiɜmiɜdi. Qərbalajı agca «basarax» Qazım ilə kalmıɜdılar çəpərin janında. Hərdən qarbalajı, dejirdi:

— Ədə, əlini jaxamdan çəq cırarsan!

Qazım kylak vermijib, qarbalajını təpiqlijirdi; o da cavabında ona bir neçə kapaz vyryrdy...

* *
*

Qun batmıɜdı, amma hələ kızartısı qəjdən çəqilməmiɜdi. Muharəbə mejdanında mərmər baɜlar əzilməqdə idilər; karınlar təpiqlənməqdən ajran tylygyna dənmuɜdu. Baɜlar, qəzlər ɜiɜmiɜdilər, amma hələ urəqlər sojymamıɜdı: vyryɜma davam edirdi. Jenə kara Ballının səsi qəlirdi:

— Aj kız, ej! Aj arvad! Dəli olmamısan çəpqənin kolyny nijə cırırsan?

Qarbalajı Agcanın qəjnəji parça-parça olmyɜdy, amma hələ «basarax» - Qazıma bir ɜej eləjə bilməmiɜdi. Qarbalajı ony kıçından qəturub, jerə çırpmak istəjəndə ɵzu də jıxılıb, «xyrcyn tajı» duɜurdulər və baɜlıjırdılar toprakda eɜələnməjə. Qazım bir «durtmə» vyranda qarbalajı-Agcanın kabırkaları batırdı; by da onyn acıgından onyn kylagını diɜlijirdi....

* *
*

Konɜy «dana» Ɜuqur pəncərəsindən neçə dəkikə idi qi davaja tamaɜa edirdi. Bynyn jolyk bıglarını və batık janaklarını qərən dejirdi: «By dytdygyny əldən kojmaz; dırnagına qeçənin baɜını qəzunu əzməmiɜ əl qəturməz»...

«Dana» Ɜuqurun «basarax» Qazım ilə çoxdan arası jox idi: Qazım çəpər çəqəndə bynyn da jerindən gəsb eləmiɜdi. Byna qərə Agcanın Qazıma galıb qəlməməji byna çox əsər elijirdi və qonlyndan bilaixtijar dava qeçirdi. Əjər Agca tərəf galib qəlsə idi, deməq olar qi, Ɜuqur saqitləɜərdi. By da qi, namə'lym idi: qərurdu qi karanlık qolların arasında vyryɜyrlar, çırpıɜrlar. hərdən kylagına bir takkıltı səsi qələndə, bilirdi qi baɜ jarıldı; amma qimin baɜı idi, bilmirdi. Xulasə, «dana»Ɜuqur bir az bynlara bakdısa davam elijə bilmijib, divardan ası-

lan çomagı qəturub, çəpərdən qeçdi və jetirən qibi elə vyrdy qi Qazımın bazı karpız təq cırıldı. Byny Zalız qərduq də bir daz qəturub, Zuqurə atdı. Daz Zuqurun sinəsinə dəjəndə Zuqur jatdı; və sonra kalkıb, Zalıza bir çomak vyrdy. Zalız da çəpərdən bir agac koparıb, Zuqurun pejsərinə japızdıranda, Zuqur palaz qibi jerə sərildi....

Dava təzədən kızızdı: bazlar jarılmakda idi; sakkallar jolynyrdy; səs konzy evlərə duzurdu. Bazardan kajıdan qizilər tamam byraja jujururdulər və kohym kohyma, dost dosta qəməq çıxırdı. Təzə bazlar sınırdı, təzə dizlər təqulurdu.

Jarım saat çəqmədi zəhərin jarısı byraja cəm oldy; dalazanları aralamak gejri mumqun idi. çırpızma davam edirdi; qəzlər təzədən kızıb, urəqlər təzədən dəjunurdu; çomaklar pejdərpej enib, kalkırdılar...

* *
*

Qecədən bir neçə saat qeçdi. Xalk damlarda və agacların dibində jatmızdı. Muharəbə mejdanında saqitliq idi; iqi tərəf də evlərinə çəqilmiz idi. «Basarax» Qazımın bazını sərijib bir tərəfə jıxmızdılar; Zalızın kylakları karpız qibi sallanırdı; Kənbər zizib, dama dənmuzdu. Dəmirçi qarbalajı-Agca qilə çoxly arvad jıgılıb, qarbalajının batmız kabırgalarına kır sakkız salırdılar. Məzədi Kasımın çanagından çıkmız qəzlərinə sud sagırdılar; Əlikylynyn jaralarına jaglı kara kojylyb, baglanmızdı. Jaralananlar yfyldyjyb, ilan qibi kıvrılırdılar və jykydan ajılan zizmiz uzunu tyrəaldıb, zarıltı ilə dejirdi:

Qərəq, kalsın sənilə mənimqi. Həlbət byradan dyraram!!....

«Dana» Zuqurin evindən bərq aglazma səsi qəlirdi-Zuqurun dirilməjinə ymyd jox idi; bazının kanı jaglı karanı qəturub qedirdi. Jaraja pejin doldyryrdylar, o da fajda vermirdi...

Bir saat da qeçdi. Aj agacın dalından jykarı kalkdı. Xoryzlar banlazdı. Səs Zuqur qildə daha da ziddətləndi: Zuqur təsliim-ryh etmiz idi:

Ajrı jerdən səs qəlmirdi. Qarbalajı-Agcanın çıragı sönmuzdu. «Basarax» - Qazım qildə hamı həzincə-həzincə xyryldazırdı. Bircə kara Ballı cırık çəpqəni çıragın kabagında o tərəfə by tərəfə çəjurub, dejirdi:

— Kadan alım, kydyrmyz arvad qər təzəcə çəpqəni nə qəqə kojdy!...

Kymarbazın arvadı.

Jajın ajdın gecələrindən idi. Səjutlər və akasjalar saqit və samit dyryb, qajınatın dərin bir jyxyja dalmagına tamaşa edirdilər. Cavan gəlin Surəjjə pəncərədən quçəjə zənn ilə baxıb, kylak verdi və səs səmir eşitmijib, ehmal ajagının ycynda gəlib jatacagınının ustə yzandı. «Gəlmədi-gəlin öz özunə dedi: jəkin kymarxanalardan çıxıb, gərəsən haraja getdi... Hər gecə belə, bilmirəm dərdimi açıb, qimə dejim. Evdə də bir söz danışa bilmirəm: kajın atam gedir bazarda abırısını təqur, o da gəlib məni dəjub, incidir qi, nijə mənim gəzdijimi onlara xəbər verirsən. Demirəm də gecəjə qibi evə gəlmir. Bilmirəm məni avara kojacak idilər, nijə vətəndən dijar bə dijar saldılar... Gurbətə əvvəl kız verib, öləni gərum kəbri od ilə dolsyn!...»

Surəjjə bir də jatacagından kalkdı və ərinin gəlməməjini həjətdə jatan kajın ana və kajın atasına bildirməməq uçun, jenə ajagınının ycynda ehmal jerijə jerijə pəncərəjə tərəf gəldi. Aj batmaga uz kojmyşdy. Quçədə səjutlərin və akasjaların yzyn gəlgəsindən başka bir şej gərunmurdu. Surəjjə pəncərəni açıb, başını dışkarı çıxartdı və nə kədər dikkət ehmallıkda kajıdıb, jatacagında yzandı.

Surəjjə javaşca pəncərəni ərtub, ajagınının ycynda əvvəlqi ehmallıkdan kajıdıb, jatacagında yzandı.

Sabah gun orta, Surəjjənin kajın atası bazardan hirsli kajıdıb, duz gəlin otagına hucym gətirdi və agzına gələn latajılı (latajir) səjlədi:

— By gun Səməd jenə duqənə nijə gəlmijib? Dahı nə vaktacan by mənim malımı pylymy aparıb, ydyzacak? Nə vakta qibi əlinə duşəni yrys arvadlarına jedirdəcəq? Tahı bəsdir. Adamda da bir həja gərəq. Mən səni gəlin gətirdim qi, oglymyn ajagını kymarxanalardan, java jollardan çəqəsən. Gətirmədim qi sən də mənə bir tərəfdən jagı olyb, oglymyn əməllərini məndən gizlijəsən. Butun işlər başı sənsən; çərəjimi jejib, mənə xijanət elijirsən. Baba, gözum, canım nijə itilib dədəjin xarabasına getmirsən? Dədən bigejrət ogly gərəq zibilini öz başından rədd elijib, mənim kapıma təqəjdi....

Qiзi agzına gələn səjuşu gəlinə dedi və sonra da kolyndan japışıb, darta, darta:

— Canım, çıx qet mənim evimdən, daha mən sənə çörəq verməqdən tənqə qəldim-dedi.

Biçarə Surəjjə kajın atası dartdıkca, jajlıgı ilə bərq-bərq burunub, səsini bilmərrə çıxartmırdı. Ancak korxysyndan tir - tir əsib, qəzlərinin jaзını təqurdu.

* *
*

Bir il idi qi, Surəjjənin əmru belə qeçirdi. Əri Səməd bir qecə evdə tapılmazdı; pezəsi neçə qunlər ila duqənə qetmijib, kymarxanalarda; pis jerlərdə ejiз izrətə məзgyl olmak idi. Arvad isə kajın ana və kajın ata bojyndyrygynyn altında təhmətzədə olyb, cavan əmrunə balta çalırdı. Səməd nə qunah eləsə idi, nədə mukəssir olsa idi, nəticəsi Surəjjəjə toxynacak idi. Kajın ana axзamadəq onyn uzunu danlıjırdı, kajınlar səjurdulər və çox vakt acıkları dytanda ev зejlərini bir bir baзına jagdırırdılar. Kajın ata isə arvadı ilə namısa xətər jetirən səzlər icad edib, qəlinə min bəhtanlar isnad verirdilər. Vicdansızlık o dərəcəjə jetirdi qi koca by bəhtanları bazarda hər ətub qeçənə nagıl etməqdən də çəqinmirdi.

By səz və səhbətlərin, muamələ və rəftarın nə kədər Surəjjəjə acı tə'siri olyrdysa da, səbr elijirdi. Səbr etmijib də nə edə bilərdi? Muslimələrin səbirdən baзka əllərində bir silahları joxdyr. Bynlar uçun azadəliq, əz diriliji jolynda mubarəzə jaranmıjıb; hamısı əsir, tərbijəsizliq əsiri...

* *
*

Bir qun Surəjjənin cehizlərini kajın atası çıxardıb, evdən bir-bəbir həjətə səpdi və dedi:

— Mənim byndan sonra Səməd adlı oglym və Surəjjə adlı qəlinim joxdyr. Qedin mənim evimdən hara qefinizdir.

O qundən Surəjjə əri ilə зəhərin bir qanarında otak qirjə edib, saqin olyrdylar. Səməd validejninin təhti-nəzarətindən kyrtarıb, avara qəzməjə daha da mejdan vermiзdi. Surəjjə jalnız damlarda, tənha həjətlərdə əmrun agır əzijjətlərinə davam edirdi. Səməd neçə qunlər ilə namə'lym jerlərdə əzu uçun ləzzət aparanda, Surəjjə ac və jyxysyz onyn jolyny qəzlujurdu. Qəlib çıxanda da arvadın cehizlərindən bir зej alıb, aparmamıз əl çəqməzdi.

— Aj, balam, axır belə olmaz-Surəjjə bir qun ərinə dedi: Sən mənim cehizlərimi tamam aparıb, ydyzdyn.

Səməd arvadın cavabında dinmədi (Səməd təq-təq arvadı ilə danışardı, həmişə evdə saqit və kaз kabaxlı otyrardı) və baзladı dəzənən xalçanı jıgıb, aparmaga. Surəjjə qəzləri jaзlı jerijib, onyn ustə çıkdı və istədi qəturulməjinə mane' olsyn, bir də əri sinəsinə bir jymryk çırpıb, dedi:

— çəqil ojana, rədd ol. Sən mənim vəzir vəqilim olmamısan.

Surəjjə aglıja-aglıja jakın qəldi:

— Mən ony barmaklarım təqulə-təqulə toxymamışam qi, aparıb ydyzasan. By da o biri зejlərim olmyjacak: paltarım qetdi, palazım qetdi, kızılım qetdi, vallah kojmajacagam daha byny aparasan.

Surəjjə Səmədin əlindən xalçanı dartdıkda, Səməd təpiq ilə arvadını vyrdy jıxdı və xalçanı qəturub, kapıdan çıxdı. Uç qun Səməd itdi. Ony зəhərdə «qərdum» dejən olmadı. Dərdumcu qun nahar vaktı koltygynda bir çərəq qəlib, çıxdı. Surəjjə çərəji aldı və jarı acıklı, jarı sızıltılı bir səs ilə dedi:

— Balam, nə vaktacan qedib, batıb qələcəqsən; mən də kalacagam damın altında ac, sysyz. Bircə adamım olmyjacak qi, bazarlık eləsin. Pylym olmyjacak kənddən, çajdan alım... Balam axır, mən də insanam-jeməq istijirəm, içməq istijirəm. Byny allah qəturərmi, sən mənim basıma by musijbəti qətirirsən...

Səməd kaз-kabaxlı içəri daxıl olyb, otagı nəzərdən qeçirməjə baзladı.

Surəjjə sözlərində davam edirdi:

— Mən by evdə jemijəcəjəm, qejmijəcəjəm, qun qərmujəcəjəm nəjə məni avara kojyrsan? Bir uzum kız, bir uzum qəlin təq evlərdə kalıram, axırda adıma da söz desələr jaxşıdırmı? Arvad saxlıja bilmirsən qagızımı ver məni zindandan kyrtar!

Səməd arvadının sözlərini qəsib, acıklı:

— Jenə zəhləmi təqmə, bircə sandıgın açarını mənə ver qərum. Surəjjə «sandık» sözu eзitcəq filfovr dəjiзilib, bir ajrı hala duзdu; qədərdən rənqi kaçıb, dodakları japrak qibi əsdi.

— Açarı nə edəcəqsən?-dedi: kalan kızıllarımamı qəzunu tiqmisən? Vallah bojnyma diri ilan salasan onları vermərəm. Imanım, dinim bir kızıldır, ony da aparıb, ydyzmakmı istijirsən?

Səməd bir az ehmal səsilə:

— Ahmak olma, sabah jenə qətirib, özunə verəcəjəm.

— Istəmirəm. Elə xalımı, qəbələrimi də sabah qətirirdin; uzuqlərimi, kızıl jaxalıgımı da qətirirdin... Istəmirəm, bircə ətəqlijim kalıb, tahı ony verməjəcəjəm.

Səməd hirsli bir halda sandıga tərəf jeridi:

— Məni jenə dindən, məzhəbdən çıxartma, açarı ver!

Surəjjə ərinin sandıga dogry qetməjinə mane' olyb, dejirdi:

— Vallah vermijəcəjəm. Kızıl mənim jaraəıgımdır, adımdır. Səməd arvadını acıklı qanara itələdi:

— Sənin jenə dəjulməjin jetiəib, iqi uç qundur qi dəjulməmisən dejən havalanmısan.

— Dəjulməjim jetiəib, dəj! Tahı nəjim kalıb qi: baəımda jolynmakdan bir tuq kalmıjıb, diələrimi vyryb, salmısan.

Səməd jerindən kalkıb, arvadına bir əapalak çəqdi qi, zərbdən qəzlərindən od parladı. Biçara aglıja-aglıja ərinə kargıə eləməjə baəladı:

— Kolların kyrysyn! Sənin qucun məni dəjməjə çatırsa, mən də allaha sıgınmıəam. Allah by zylymy qətruməsin!.

Səməd otakdan çıxdı və neçə dəkikədən sonra əlində balta içəri daxıl olyb, sandıga tərəf qetdi. Surəjjə kollarını sandıgın ustə qərdi və agladı:

— Vallah kojmajacagam sındırasan. Mənim qəz tiqəcəjim bircə kızıldır, ony da aparsan nəjim kalır?

Səməd arvadını zor ilə qanar edib, baltanı sandıga çırpmaga baəladı. Surəjjə jenə ilərlijib, qəzlərinin jaəlarını təqə - təqə ərinin əllərini dytdy. Səməd acıkdan rənqi kaçmıə:

— Ölumu jetiəib ha!

— Ölumum jetiəibsə, öldur. By qundənsə ölum jaxəıdır.

— Ölumun jetiəməsin, ojana kaç!

— Kaçmıjacakam.

Səməd bir də quc elədisə arvadın öhdəsindən qələ bilmədi. Baltanı kovzadı sandıga çırpsın, jenə Surəjjə özunu kabaga verib, aglıja-aglıja jalvardı. Səməd arvadını dəjdu, ona səjdu, ustunə çıgırdısa da, Surəjjə kızıllarından əl çəqməməq fiqrilə sandıgı kycakladı. Bir də balta ıldırım qibi havadan endi. Surəjjə əllərini baəına atıb, sandıgın kabagına sərildi....

Al kan qəlinin qəz jaəları ilə karıəıb, sojyk janagı aəagı axırdı.

Polis paltosy.

Talıʒ-xanın urəjini səz dəlirdi. Өzu də səz saxlamıjan bir adam, elə istijirdi qi, karəısına çıxana açıb, dərdini desin. Bir də xan fiqir elijirdi: «Hər səzu adam өzqələrə deməz. Iədir, birdən qedib gybernatın kylagına çatar, onda... onda nə olacak, adamı elə itirərlər qi heç jeri, jyrdy da mə'lym olmaz».

Xan өzunə bir az өjut və nəsihət verirdisə də, urəjindəqi səz ona saqitliq vermirdi. «Joxsa arvada dejim-xan jenə өzu ilə səhbət edirdi: arvad qedib, mənim səzumu өzqələrə dejib, sirrimi açmıjacak qi, gybernat da məndən qəm iltifat olsyn. Deməz... agzı da nədir desin; bir dəkikə də nəqərlərə өldurdub, mejitini itirdərəm».

Bir də Talıʒ-xan fiqrini dəjiədi: «Arvad tajfası agılsız olyr. Bynlara e'tibar edib, səz deməq olmaz. O da kan bahalı səz. Jox, jaxəısı bydyr qi qedib, dostym Paəa bəjə dejim. Өzu də elə qedim qi, heç qəs xəbərdar olmasın»....

By fiqir xanın aglına batdı. Nəqərləri çagırdı qi, paltarını qətirsinlər. Talıʒ-xan paltarını qejib və rəfi-iətibah uçun Kars davasında aldıgı «qeorqi» xaçını dəəunə taxıb, kargısını da kolyna alıb, qetdi.

Xan Paəa-bəjin darvazasına jetiədiqdə, quçəjə zənn elədi və əubhəli adam olmamagını qөrub, içəri qirdi. Bəjuq həjəti də nəzərdən qeçirib, qəhnə imarətin pilləqənindən jykarı çıkmaga baəladı. Paəa-bəj jenicə ajak barmaklarına həna jaxıb, ocagın kıragına yzatmıədı qi Talıʒ-xan kapıdan qirdi:

— Xejirdimi a kodyk-dejə: bəj qulumsundu (xan ilə bəjin zarafatı var idi: Həmisə bir birini «kodyx» dejə çagırırdılar).

— Xejir olmamıʒ nə var, өlqə bir birinə dəjsin, sən də ajagına həna jax.

Paəa-bəj xanın uzundə ciddi və muhumm bir xəbər olmasını anlıjıb, javaə bir səs ilə:

— Dogrydan nə olyb?

Bəjin cavabında xan bir az dyryxyb və otagı da nəzərdən qeçirib, gajət javaə bir səs ilə Paəa-bəjin kylagına pıçıldadı:

— Dejirlə... gybernatın ajagına çıban çıxıb.

Bəj by səzdən diq atılıb, az kaldı urəji qetsin. Xan da çəqilib, bətbənzi kaçmıʒ bir tərəfdə toxdadı. Bir az qeçmiə xan cəsarətsiz:

— Bəlqə (allah eləməmiz) Evo prevasxoditelstvonyn bazına bir iz qəldi, onda nə təhər olacak. Dejəcəqlər qi, xanlar, bəjlər qunahqardırlar.

Bəj javaz səs ilə:

— Bəs nədir, elə yrys da ziltaga qəzir...

Xan Paza-bəjin səzlərin qəsib, dedi:

— Bazına dənum, Paza, yrys adı çəqmə, nə lazım... biz həmizə yrys padzahının itaətində olmyzyk, jenə hazırık. Ancak... adamdır dajna, urəjinə xovf qələr... Imdi nə bilim, çibandır vyrdy birdən... bazına dənum, Paza, qəl heç by səzu danızmıjak.

Paza-bəj bir az curətli:

— A qizi imdi danızanda bizi surmujəcəqlər qi, səzdur...

Talız-xan əlilə Paza-bəjin agzını dytyb, jenə səzunu qəsib dedi:

— Paza, allah xatırına xataja salma, gələt eləmədim bir səz dedim. Qujə salacaksan qedib, gybernatın kylagına çatacak, ondan ojana di əl Talız-xan!

Paza-bəj xandan xilas olyb, jenə danızmak fiqirində idi. Bir də xan kylaklarını dytyb, «allah xatırına məni xataja salma» dejə-dejə otakdan çıxdı. Balkonda kyllykçylar agalarının paltarını zəlitə sərib, havaja verirdilər. Bynların içində kırmızı bojynly bir qəhnə polis paltosy var idi. Ittifakən Taliz xan otakdan çıxdıkda, qəzu by polis paltosyna satazdı. Biçara xan belə quman elədi qi piristov Paza-bəj quldə konak imiz və gybernatın çıbanı barasında olan səhbətləri tamamən ezidib. By quman ilə xan aram tapa bilmijib, korkyly qəzləri paltoja baxa-baxa jıxılıb, əzundən qetdi.

Bir dəkikədə nəqərlər təquldulər. Paza-bəj də içəridən çıkdı. Sy qətirdilər Talız-xanın uzunə və sinəsinə sy səpib, ovmaga bazladılar. Xan bir az əzunə qəlib, bir də gəzz elədi. Jenə uzunə sy çilijib, ajıltdılar; dyryb otyrdy.

Paza-bəj soryzdy:

Aj, dadaz, axır sənə nə olyb?

Xan byna cavabən titrəq səs ilə.

— Nə olacak, piristovy evə qətirirsən mənə demirsən. Məndə... olyr da, adam artık-əjsiq danızır.

— Aj, dadaz, piristov byrada joxdyr. Vallah bilmirəm byny sənə qim xəbər verdi?

— Nijə əzum qərmurəmmi, paltosy da orada asılıb.

«Palto» sözündə xanın rəngi kaçdı. Paşa-bəj and içə-içə: aj, Talış, vallah, billah, palto özumundur. çıxardıb, qunə verirlər.

Xan inanmak istəmədi. Bəj sözündə davam edirdi:

— Istijirsən durust bax, qəhnə paltodyr. Belə paltony piristov qejməz, onynqy həmisə təzə olyr. Mən byny qəhnə paltar satandan almışam.

Paltonyn qəhnəlijini subyt etməq uçun biçarə Paşa-bəj bir çomak qəturub, paltoja çırpdı, toz kalkıb, dyman qibi ətrafı dytdy. Xulasə Paşa-bəj və nəqərləri nə kədər dəlil və subyt ilə sə'j edib, paltonyn rəvajətindən nagıl etdilərsə də, xanı şubhədən çıxarda bilmədilər. Belə şubhəli və bir az da rəncidə - xatır xan dyryb, darvazadan çıxdı.

Jol ilə qedərqən, xan belə fiqir də idi: «Necə ola bilər qi, mənim otyz illiq əməjimi bir piristov zajil elijə. Mən otyz ildir padşahıma nəqərçiliq eləmişəm, Kars davasında kan təqub, rəşaədt qəstərmişəm... Necə ola bilər qi... mən bilirəm qi by saat işlər gybernata mə'lym olacak. Ondan sonra... mən necə gybernatın qəzunə qəruqə bilərəm... bircə çara var: qərəq by saat gybernatın janına qedib, ajaklarına jıxılam; dejəm: «Məni balalarınıın başına çəjur!»

* *
*

Axşam xan ovkatı təlx evə kajıtdı. Kapıçılar cavab veriblər qi, gybernat jatıb, heç qəsi kabyl etmir. Kapıçıların sözləri Talış-xanı odlyjyrdy. Xan jəkin eləmişdi qi, gybernat piristovyn sözlərindən qədərlənib, kapını açdırmıjıb. By işlərdən şiddətli bir nəticə hasıl olmagı xana aşqar idi.

Arvad ərini by halda qərcəq soryşdy.

— Nijə biqefsən, xan?

Xan arvadının bojnyny kycaklıjıb, agladı.

— Aj arvad, gybernatın gəzəbi dytyb, necə olacajık? Bizi surdursə başımızın agarmış vaktı Sibirdə nə kajıracajık?

Arvad işdən durust xəbərdar oldykda ərini kycaklıjıb həqurdu:

— Aj Talış, qaş ölə idim by qunu qərməjə idim!

Xan aglıja-aglıja:

— Arvad, aj qözəl arvad, bircə asydəliqdə kədrini bilmədim. Məni halal elə.

— Halalın olsyn, jazık qişi, mənə nə eləmisən qi halal elijim ?

Ər və arvad neçə dəkikələr otagɪn ortasɪnda kalɪb, aglaɜdɪlar və sonra arvad jaŋgɪlɪ bir səs ilə:

— Talɪɜ,-dedi: kojarammɪ səni surƣun qedəsən: saçlarɪmɪ dөɜərəm gybernatɪn ajagɪna. Səndən vəfa ƣөrmuɜəm, aj qiɜi.

Bir dəkikədə arvad nөqər və kyllykçydan bir neçəsini ƣөturub, izhari-ubydijjət və əfv diləməq uçun gybernatɪn evinə rəvan oldylar. Talɪɜ-xan da məhəllə ag sakkallarɪnɪn dalɪnca ƣetdi qi, bynlarɪ da gybernata minnətci ƣөndərsin. Məscidin janɪndan qeçdiqdə hələ xanɪn ƣөzlərinin jaɜɪ kyrymamɪɜdɪ. Biçara tez-tez ƣөjə baxɪb, allahdan gybernatɪn qonlyna rəhm salmagɪ dilijirdi. Bir də... hejhat!.. xanɪn karɜɪsɪnda bir polis paltosy dyrmyɜdy.

— Sənə fəda olym,-bogynyk və titrəq bir səs ilə xan-dejirdi: Mən otyz ildir padɜahɪma nөqərçiliq eləmiɜəm. Kars davasɪnda can ilə kyllyk eləmiɜəm; veliqij ƣinjazɪn өzundən «Baraqallah» almɪɜam. Padɜahɪn cəmi nөqərlərinin nөqərijəm; dəftərxana kyllykçylarɪndan dytmyɜ yrjadniqə dəq-hamɪsɪnɪn kylyjam, hamɪsɪnɪn itijəm...

Polis paltosy ƣyja xanɪn nitkinə e'tina etmijib, iləri jerijirdi. Xanɪn dili dytyla-dytyla:

— Cəmi divan adamlarɪ mənim bөjujumdurlər; hər nə byjyrsalar baɜɪm ustə əmələ ƣətirərəm. Ag sakkal vaktɪmda cəhənəmə də ƣөndərsələr, ƣedərəm...

Palto bir az da javɪklaɜdɪ.

Xan sөzunu tə'sirsiz ƣөrduqdə, dili korkydan daha da dytylydy və uzunu dөndərib, kaçmaga uz kojdy. Xan kaçdɪkca, palto da onyn dalɪnca duɜdu. Xan nə kədər bərq jujurdu, palto da onyn ilə ajaklaɜdɪ. Axɪrda lap çatɪrɪb, ustunu qəsdirdi. Kɪlçaları kyrymyɜ xan baɜɪnɪn ustə polis paltosyny hiss etdiqdə, zəhrəçaq olyb, jerə jɪkɪldɪ və byradaca canɪnɪ əzrajɪla tapɜɪrdɪ.

Məscid mucaviri jujurub, xanɪn, өlməq xəbərini arvadɪna verməq istədiqdə, ony da orada bagrɪ çatlɪjɪb vafat etmiɜ ƣөrdu. Gybernat xanɪmɪ kabyl etmijib: jatmɪɜ imiɜ.

Durnisə və qarbalajı Ejvaz.

Qarbalajı-Ejvaz otaga qirəndə arvadı Durnisəni biqef qərdu. Qizi arvadına heç e'tina etmijib, ocagın kıragında otyrdy. Bir az kızıgdı, byrnyny çəqdi, sonra arvada tərəf baxıb dedi:

— Elə otyryb, elə bil by acından ölən bynyn sahıbı dejil. Nijə dyryb, pizmiz vermirsən jejim?

Arvad aglamsına-aglımsına:

— Özun qet qətur je; tahı byndan sonra mən sənə kyllyk eləmijəcəjəm. Sən qi mənim kədrimi bilmirsən.

Qizi hirsli:

— Jenə nə olyb? Cinin dytmyjyb qi!

— Nə olacak, sabahdan axzamadəq izlijirəm; heç bir dimirsən: «Aj, arvad, allah atana behizt versin, allah səndən razı olsyn». Ancak ony bilirsən, qi evdə kaz kabaxlı otyryb, qəntəj qəntəj danızırsan!

Qarbalajı Ejvaz aravdın nazından baz açmırdı-cəmi fiqri zamananın dəjizilməji ilə; bazar qasad, muztəri jox, zindəqanlık çətin, arvadın sözləri də bir tərəfdən. Qizi tab qətirə bilmijib, odlandı:

— Kyllyk eləmirsən, eləmə! Mən də səni bozaram kalarsan canın çıxa-çıxa.

— Boza! Elə mən də allahdan ony istijirəm.

Qarbalajı Ejvaz daha da acıklandı. Jerindən kalkdı, arvada bir iqi təpiq vyryb və sonra taxçadan bogçaları jerə təqub, dedi:

— Dyr, cır-cındanı jıg qedəq kazının janına: səni bozyjyram.

Durnisə qəzunun jazını ətəji ilə silib, cehizlərini topladı və byxçaja baglıjıb, vyrdy koltygyna. Ər, arvad bir birinə kozylyb, fanys əllərində, axzam qetdilər kazının janına. Kazı qəjnəqli bynların karzısına çıxıb, bir ərə baxdı, bir arvada baxdı; sonra koltygyny kazıja-kazıja dedi:

— Sabahı allah qəsməmizdi qi, axzamın karanlıgında dyryb, oradan byraja qəlibsiniz?

Qarbalajı Ejvaz baz endirib dedi:

— Aj kazı aga, bynyn əlindən mənə dincliq joxdyr. Bil-

mirəm zindəqanlıgın dərdini çəqim, joxsa bynyn. Allah xatırına byny mənim basımdan rədd elə!

Durnisə də jasmanıb, danısmak istijidi, kazı sözunu qəsdi:

— A qizi, bihəjalık by kədər! Hələ danısır da...

* *

*

Niqah fəsk oldy. Qarbalajı Ejvaz kajıdıb, qəldi evə, Durnisə də salıb kohymy qilə qetdi.

Qarbalajı axsam çıragı jandırıb, bir az otyrdy; qərdu byndan fajda joxdyr-jatmak tədariqinə dusməq qərəq. Kalkdı ajaga, juqə tərəf jənəldi və əlini mutəqqəjə atanda, jadına dusdu qi axır Durnisə byrada olsa idi heç mən by zəhmətə dusməzdim.

Əlac jox idi: biçara jorgan dəsəji juqdən eidirib, al və zar ilə özunə jatacak duzəltdi və sojynyb, jorganı basına çəqdi.

Pajızın kyry sojygy baslanmısdı. Qarbalajı Ejvaz nə kədər jorgana burundusə, sojyk aman vermədi; dyryb paltarlarını da ustunə çəqdi, kızısmadı. Dedi:

— Atam sənə kyrban, aj Durnisə! Sənsiz jorgan dəsəq nə sojyk olyrmys!

Qarbalajının fiqir qəturdu. Basını sandıga səqəjib, subhə qibi murqu dəjdu.

* *

*

Axsam qarbalajı Ejvaz evə kajıtdıkda qərdu jel xəzəli aparıb tamam kapıja və pəncərəjə doldyryb, zibil hər jeri agzına alıb. Kapını açıb, otaga qirdiqdə dunəndən jem verilməmis pisiq mıjıldıja mıjıldıja qisinin kabagına jujurdu. Jatacak jıgılmamıs dyryrdy; otak da sojyk və zibilli idi.

Qarbalajının ovkatı lap təlx oldy. Arvadın kədrini imdi imdi bilməjə basladı. Gəmli qəzlərini evə dolandırdı; fiqir elədi: «Jazık Durnisə, elə ha islədin, heç bir atana kyran oxytmadım. Dedin: «A qisi sən allah mənə bir «alısdım-jandım» çəpqən al, tajdan tysdan qeri kalmıjım» kylak asmadım. Imdi jerin qərunur. Həmisə axsam qəlib, evi supurulmus, ocagı kalanmıs, çajı və pismisi hazır qərərdim. Imdi heç zad joxdyr!....»

Qarbalajı Ejvazı jas bogdy. Basını pəncərəjə səqədi və fiqirə qetdiqdə, ac pisiq jenə mıjıldıjıb, qisinin kılçasına surtusməjə basladı. Pisijin səsində o kədər sızıltı var idi qi, elə bil qarbalajını məzəmmət edib, dejirdi: «Heç ytanırsanmı? Mənim

neçə illiq ev sahıbımı boзadın, imdi - mən onsyz aclıq əzijjətinə davam edirəm». Byndan daha da tə'sirlənib qiзi həqurub agladı.

* *
*

«Mən Durnisəsiz evə kajıtmıjacagam!» by sözlər ilə qarbalajı Ejvaz evdən çıxıb, qetdi. Fiqrində by idi qi, qetsin Durnisəni çəpərə çagırıb, desin: balam bir iз idi oldy-janı imdi iqinci dəfə qəbin qəsilsə nə ejb edər? - Belə də elədi. Qetdi. Xaraba qarvansaranın bəjrundən ətdu. Iqi damxa qeçib, uçuncusunə javıklaзdı. Arvadı olan çəpərə çatdıkda, qarbalajı qərduqu, by dytası iз dejil. Əvvəl qərbalajınızın uzundən qəlməzdi qi arvadı çəpərə çagırsın; iqinci qendən bakan da pis anlardı. Qiзi mə'jys qeri kajıtdı.

Qarbalajı Ejvazın dunjada bircə dosty var idi; adına Havva karı dejirdilər. Nə kədər dərdi olsa idi, ona söjlərdi. Karı qarbalajını özunə ogyl hesab edib, ona artıq can jandırardı: azarlıjanda uzərriq tustusunə verərdi; ildə neçə dəfə arkasına həcəmət kojardı.

Qarbalajı baxdı qərdu by dərdinin də əlacı Havva karıdadır. Byna qərə qedib, karının kapısını dəjdu:

— Nənəm evdədirmi?

Içəridən səs qəldi:

— Evdədir kadan canıma!

Qarbalajı Ejvaz içəri qirdi. Karanlıq bir otakda uzu kırıзmıз bir karı otyryb, pilə əjirirdi. Karı qarbalajını kycaklıjıb, alnından əpdu. Qərbalajı bir dəsmal əzqil qətirmiзdi, byny arvadın kabagına kojyb, dinməz baзını aзagı saldı.

Sadə lovh karı qəzləri jaзarmıз:

— Qarbalajı, kadan alım, by nə idi baзına qəldi?

Qarbalajı dinmədi. Karı səzundə davam edirdi:

— Durnisənin səndə hakkı çoxdyr, allah зejtana lə'nət eləsin!

Qarbalajı dolyksyndy:

— «Bilirəm, nənə! çox-çox idi!... Bir iз idi duзdum.

Karı çeзməjin ustundən qarbalajıja baxa-baxa:

— Elə Durnisə də peзman olyb, evinin qorlygyny elijir. Jazık nejnijəqlə o evi tiqib; axır sən evlənəndə bir zadın jox idi!

Qarbalajı tab qətirə bilmijib, daha da qəjrəldi; və əlinin dalı ilə qəzundən iqi-uç isti damcı alıb, dəзəjə saldı.

Karı qarbalajının halından xəbərdar olyb, dedi:

— Mən Durnisəni də çagıraram, sonra qəbin qəsilər. Bazınızı salın damınızın altında qasıbqarlıgınıza kyrəanın!

Qarbalajı Ejvaz təəqqur izhar edən qəzlərilə karıja baxıb, ytana-ytana:

— Allah səndən razı olsyn, nənə!-dedi və jenə aglamsandı.

* *
*

Qəbin qəsilib, kyrtarmıədı. Axəam qarbalajı Ejvaz otyryb, arvadını qəzlujurdu. Qiəi çaj kojyb, ocagı qəqləmiədi. Bozbaə da piti də kajnamakda idi. Ev tər təmiz idi, hər əej jerində idi. Hamısını da qarbalajı əzu kajdaja salmıədı qi arvad qəlib hazır qərsun bir də kapı açıldı əvvəl əqilə əqilə karı qirdi, daldan da Durnisə. Qarbalajı diq ajaga kalkdı. Arvadı qərduqdə əvvəl dondy və sonra bir od cəmi vycydyna jajıldı; Qarbalajı qərdu qi uzu və kylakları istidən janır. Durnisə də bədənində bir istiliq hiss etdi; by da jerində mat kalıb, qəzlərini jerə tiqdi. Bir neçə dəkikə ər və arvad by halda kalıb, bilmədilər nə etsinlər və bir birinə nə desinlər. Karı bynları by qulunc vəzijjətdən kyrtardı. Cehiz olan byxçanı Durnisənin koltygyndan alıb, kojdy taxçaja, çarəafını açdı əlitə atdı və iqisini də otyrdyb, dedi:

— Lə'nət əejtana dejin, həmiəəqi qibi dolanın! Tahı siz balaca dejilsiniz qi, sizə nəsihət elijim. Sizin iqinizin də heç qəsi joxdyr; bir birinizdən mygajat olyn!...

Ər, arvad baəlarını aəaga salmıədılar. Karı bir də.

— Kadan alım, Durnisə, çaj təq içəq !

Arvad urqə-urqə samavara tərəf jənəldi. Istiqanlara çaj təqdu və javaəca qəturub, sufrənin ortasına duzdu. Havva karı çajı qarbalajınının kabagına kojdy. Qarbalajı kənd istədi. Durnisə kənddanı qəturub, yzatdı. Amma qiəinin uzunə baxmadı. Qarbalajı da uzunu bir tərəfə dytyb, kəndi aldı. Iqinci istiqanda Durnisə bir az açılıədı-çajı duz qarbalajınının əlinə verdi. Qarbalajı curətli:

— Arvad, allah atana behiət versin, bir iqi jymyry kənd ver-dedi. Iqisi də javaə-javaə lap açılıədılar.

Beləcə ər, arvad barıədı. Əvvəl axəamdan qarbalajı rahatlıga çıkdı; qəlib evi təmiz və isti qərurdu; qecə sojyk artık qar eləmirdi. Piəijin də zarıldajan səsindən onyn ovkatı təlx olmyrdy.

Aradan bir neçə vakt qeçdi. çogynly kıʒ idi. Tərəqəmə səhərdən çəqilib, qetmiʒdi; bazar bərq qasadlıq idi. Axʒam qarbalajı Ejvaz kaʒ kabaxlı evə qəldi. Həmisə kapıdan otaga qirəndə salam verirdi, by səfər dinməz qəlib, ocagın kıragında otyrdy. Qiʒi fiqrə batmıʒdı. Fiqri də by idi qi, istijirdi duqəni jıgsın və ajak ustə dallallıq eləsin. Bir də jadına duʒdu qi, majası joxdyr; nə ilə alıʒ veriʒ edəcəq. Qiʒinin fiqri by idi qi, evdən bir neçə ʒej satıb, iʒə qiriʒsin. Joxsa duqən qundəliq jeməq pylyny çıxarmırdı.

Qarbalajı lajihələrilə məʒgyl, ocagın qanarında suqyta qetmiʒdi. Nə jeməq nə içməq heç biri bynyn jadına duʒmurdu. Arvad da saqit otyryb, fiqirdə idi. By da fiqir elijidi qi, nə olardı allahın altında bir «alıʒdım jandım» çəpqənim ola idi, qejinib hamama qedə idim; toja qedə idim. Bilə idilər qi mən də arvadam, mənim də səlikəli paltarım var.

Durnisənin də əri qibi jadına nə jeməq duʒurdu, nə içməq Adətən qiʒi fiqirlərini arvada demirdi; arvad isə saxlıja bilmirdi. By səfər də Durnisə bir az fiqirləʒib, birdən qulumsundi və əlini ehmalca qiʒinin dizi ustə kojyb, dedi:

— Qərbalajı, sən allah nijə bir çəpqən almırsan!

Qiʒi fiqirdən aralanıb, arvadının uzunə diq baxdı. Rənqi kaçdı və alt dodagı baʒladı titrəməjə. Bir az baʒını tərpədib çıgırdı:

— Insafsız kızı, insafsız! Baʒımdan rədd olmyjacaksan!

Qarbalajı arvada dejəcəq idi: «Qeçi can kejdindədir, kəssab da pij axtarır- mən bir çərəq pylyndan ətru az kalıram, baʒ qəturub səhərdən kaçam; sən də çəpqən hajına duʒursən...» Amma qiʒi hirsindən arvada artıq səz demədi və dodakları titrəjə titrəjə kalkıb, taxçadan Durnisənin bogçasını qəturub atdı jerə; dedi:

— Dyr qedəq kazınun janına!

Durnisə qəzləmirdi qi «çəpqən məsələsi» qiʒijə belə agır qəlsin. Ona qərə səzlərinə artıq peʒman oldy və istədi qiʒijə desin: «Balam, lə'nət ʒejtana de!» korxdy. çunqu qarbalajınun ovkatı bərq təlx idi.

Kazını jyxydan ojatdılar; səjlənə səjlənə talak verdi.

* *
*

Qarbalajıja Durnisənin qetməji jenə baʒladı əsər eləməjə. Jenə kapı, bacanı toz basdı. Ev tər təquluntu kaldı. Qecələr də sabaha qibi qiʒi sojykdan jata bilmədi.

Qarbalajı bir həftə dəzdu, iqi həfə dəzdu. Axırda lap cana dojyb, jenə Havva karının minnətçi saldı qi, Durnisə qəlsin: Durnisə jenə qəldi. By səfər iqisi də özlərinə söz verdilər qi daha lap jaxşı dolansınlar; çunqu acı təcrubə qöstərdi qi, qarbalajı Durnisəsiz, Durnisə də qarbalajısız ömr edə bilmirdi. Qarbalajı dejirdi:

— Arvad, bizim evladımız joxdyr, kəlbimiz sınıqdır. Onyn uçun da allah bizə bir istəq verib qi, bir birimizdən yzaklaşanda ajrılığa tab qətirə bilmiriq!

Arvad tabe' bir halda başını aşagı salıb, dolyxsyndy.

Qizi sözundə davam edirdi:

— Nə sənin, nə mənim bir qimsəmiz joxdyr. Sən çalışırsan mənim uçun, mən də pyl kazanıram sənin uçun, vallah atamın qory hakkı, mənim varım olsa, səni başdan ajaga kızıla dytdyraram. Nə edim qi dagılmış zamanada bir çörəq pyly kazanınca daş daşdan aralanır. Mən jenə nə təhər olsa sənə qonlyn istəjən qibi bir çəpqən alacagam!...

* *
*

Ər, arvad rahat dolanırdılar. Qizi qəlib həmişə hər şeji hazır qörurdu. Acıgı da dytmyrdy. Kədimqi qibi kapıdan qirəndə salam verirdi; arvad ilə hərdən dərdləşirdi də.... çox vakt pyl artıranda, qörurdun, arvada koz halvası da alıb, qətirirdi. Xırda-xırda dogrardı, öz əlilə aparıb, arvadın agzına kojardı və dejərdi:

— Atam sənə kyrban, arvad, je səndən savajı mənim heç qəsim joxdyr!

Arvad çox xoşhal olardı.

By minval ilə iqi, uç aj dolandılar. Bir qun nə təhər oldysa zəhirmar çəpqən jenə qəldi duşdu arvadın jadına. Özu də oryclykda, qizinin ovkatının lap təlx vaktı. Iftardan sonra qizijə kaljan dəjib, başı fırlanırdı. Arvad javaşca qəlib, janında otyrdy və ehmalca əlini onyn dizinin ustə kojyb, dedi:

— Elə dejəsən «alışdım jandım» çəpqən dejə-dejə kəbrə qedəcəjəm!

By sözlər qifajət elədi. Qizi dəli qibi kaljanı qöturub çırpdı arvadın başına. Kab, kaşık bir birinə karışdı; pişmişlər dagıldı...

Bir saat çəqmədi, jenə kazı söjlənə-söjlənə niqahı fəsx elədi.

* *
*

Qarbalajı Ejvaz by səfər ev eзijin tərqini kıldı. Duqəni jıgıзdırdı və bir eззəq alıb, qetdi qəndə çərçiliq eləməjə. Jenə Durnisəni boзadıgına peзman olmyзdy, amma bir də qeri kajtarmaga curət etmirdi. By dərddən зəhərə qəlmirdi qi jenə Durnisə jadına duзər. Qəntdə pis qeçmirdi: bazarı ravac idi; dolanıзıgını da junqulcə jola verirdi.

Bir il qeçdi. Qarbalajı baxdı qərdu əlli manat da pyl artırıb; bir belə pyly qarbalajı Ejvaz cəmi өmrundə qərməmiзdi. Qiзini fiqir qəturdu. Papagını kabagına kojyb, өzu өzu ilə fəlsəfanə bir tərzdə baзladı danıзmaga:

— Jaxзı, zəhmət çəqib, pyl kazandım. Allah bərəqət versin! Ancak mən ahmaga dejən qərəq qi, sabahları baзını jerə kojanda by pyllar qimə kalacak! Jəkin bir lotynyn birisi jejib, qəryma da səjəcəq!... Byndan irəli arvadım var idi, evim var idi. Imdi nəjim var! Sonsyz bir adamam. çox da oldy min manat pylym, nəjə lazımdır-içinə zəhirmar karıзsın!..

Qarbalajı Ejvaz qəzlərini jaз ilə doldyryb, səmimi bir istəq ilə Durnisəni jadına saldı. Fiqir elədi qərdu qi Durnisəsiz өmrun nə ləzzəti, nə dadı nə məksədi qərunmurdu.

— Jox, mənə pyl lazım dejil-dejirdi: mənə sən lazımsan, arvad, qi өləndə də uzumu kibləjə çөjurəsən! Jaxsa, by gurbətdə өlsəm məni basdıran da olmyjacak!...

* *
*

Qarbalajı зəhərə qələn qibi qetdi Havva karınının janına. Karıja əhdi-pejman edəcəq idi, qi daha by səfər Durnisəni qətirib, «pir» dejib japıзacak. Fiqiri də by idi, qi arvad qələn qunu, pyllardan ona «alıзdım jandımdan» bir çəpqən; xaradan da bir tyman alsın.

Qarbalajı Ejvaz kapını açıb, karı ilə qəruзdu. Karı həmiзəqinə qərə qөzə qefsiz dəjirdi. Qarbalajı syal cavabdan sonra Durnisədən səz saldı:

